# Müstəqillik dövrü

1991-ci ilin oktyabrında Azərbaycan yenidən dövlət müstəqilliyini bərpa etdikdən sonra dövlətin qarşısında duran əsas vəzifələrdən biri də xarici ölkələrdə yaşayan azərbaycanlıların təşkilatlanması, onların ölkəmizin ümumi maraqlarının müdafiəsi işinə cəlb edilməsi olmuşdur.

Sovet Sosialist Respublikaları İttifaqı kimi nəhəng imperiyanın dağılması milli məfkurəli suveren dövlətlərin meydana gəlməsinə rəvac verdi. Nəticədə, postsovet məkanında xalqların öz soy-kökünə qayıdışı başlandı. İstiqlaliyyət əldə etmiş yeni dövlətlərdə baş verən sosial-iqtisadi hadisələr miqrasiya proseslərinin sürətlənməsinə səbəb oldu, bu da yeni diasporların təşəkkülünü və inkişafını şərtləndirdi.

Azərbaycan Respublikasının müstəqil dövlətçilik ənənələrini bərpa etməsi və bunun ardınca ölkədə baş verən ictimai-siyasi hadisələr xalqın mühacirət tarixində də öz təsirini buraxmışdır. 1991-93-cü illərin siyasi hərc-mərcliyi, bir-birinin ardınca baş verən dövlət çevrilişləri ölkə daxilindən xaricə siyasi mühacir axınına səbəb olmuş, yalnız ümummilli lider Heydər Əliyevin 1993-95-ci illər ərzində apardığı məqsədyönlü fəaliyyət bu prosesə son qoymuşdur. 1995-ci ildən etibarən ölkə başçısının xarici ölkələrdə yaşayan həmvətənlərin problemləri ilə yaxından maraqlanması, xaricə etdiyi bütün rəsmi və qeyri-rəsmi səfərlərində soydaşlarımızla görüşlər keçirməsi, bu görüşlər zamanı diaspor və lobbi məsələlərini dövlət əhəmiyyətli iş kimi önə çəkməsi müstəqillik illərində ali dövlət rəhbərliyinin diaspor problemlərinə yeni yanaşmasından xəbər verirdi. Dövlət səviyyəsində görülmüş tədbirlər qısa zaman ərzində öz bəhrəsini vermiş, xaricdə meydana gəlmiş milli cəmiyyət və təşkilatların fəaliyyətlərində keyfiyyət dəyişikliklərinə səbəb olmuş, dünya azərbaycanlılarının harada yaşamasından asılı olmayaraq Azərbaycan dövlətçiliyi naminə çalışmaq onların başlıca amalına çevrilmişdir. Müxtəlif ölkələrə səpələnmiş azərbaycanlıların öz milli mənsubiyyətlərini qorumaqla mədəni-siyasi həmrəyliyi müstəqil Azərbaycan Respublikasının dövlət maraqlarına uyğun gəlir və onun strateji məqsədlərindən biridir. Müstəqilliyin və dövlətçilik ənənələrinin möhkəmləndirilməsi, beynəlxalq aləmdə Azərbaycanın mövqelərinin gücləndirilməsi, erməni təcavüzünə məruz qalmış xalqın haqq səsinin dünya ictimaiyyətinə çatdırılması, Dağlıq Qarabağ probleminin beynəlxalq hüquq normaları və prinsipləri çərçivəsində ədalətli həllinə nail olunması xarici ölkələrdə diaspor fəaliyyəti ilə məşğul olan təşkilatların vahid mərkəz ətrafında birləşməsini zəruri edir. Dünya azərbaycanlılarının yaşadığı ölkələrdə monolit qüvvə kimi çıxış etmələri onların milli və vətəndaş hüquqlarının qorunmasına da əhəmiyyətli təsir göstərir. Bu istiqamətdə xüsusilə 1993 ildən etibarən aparılan məqsədyönlü işlər artıq bir sıra aparıcı dünya dövlətlərində özünün konkret nəticələrini vermişdir.

1993-cü ildən etibarən hər il dekabrın 31-i Dünya Azərbaycanlılarının Həmrəylik Günü kimi rəsmi dövlət səviyyəsində qeyd edilir.

Dünyanın müxtəlif ölkələrində yaşayan soydaşlarımızın və həmvətənlərimizin müstəqil Azərbaycan Respublikası ilə əlaqələrinin daha da möhkəmləndirilməsi, onlar arasında birliyin və həmrəyliyin təmin olunması, habelə Azərbaycan icmaları, cəmiyyət və birliklərin fəaliyyətinin gücləndirilməsi və əlaqələndirilməsi ilə bağlı məsələlərin birgə müzakirəsi zərurətini nəzərə alaraq Dünya Azərbaycanlılarının I Qurultayının keçirilməsi

haqqında 2001-ci ilin may ayının 23-də ümummilli lider Heydər Əliyevin məlum Sərəncamı bu möhtəşəm ideologiyanın gerçəkləşməsinə istiqamətlənmişdir.

Həmin ilin noyabr ayının 9-10-da Bakıda keçirilən Dünya Azərbaycanlılarının I Qurultayı Azərbaycan tarixinə böyük bir prosesin başlanğıcı kimi daxil olmuşdur. I qurultayda 36 ölkədən 200-dən çox müxtəlif təşkilatı təmsil edən 406 nümayəndə və 63 qonaq iştirak etmişdir. Bu qurultayda Azərbaycan Respublikası 130-dan çox dövlət və ictimai qurumlardan, elm, təhsil, mədəniyyət və digər yaradıcı təşkilatlardan, 25 siyasi partiyadan 702 nümayəndə və 844 qonaq ilə təmsil olunmuşdur. Dünya Azərbaycanlılarının I Qurultayında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitq söyləmişdir.



Dünya Azərbaycanlılarının
I Qurultayı
2001

Dünya azərbaycanlılarının I qurultayı xaricdəki soydaşlarımızın ümumi məqsəd, vahid ideya ətrafında birləşməsi yolunda böyük addım, gələcəyə istiqamətlənmiş önəmli tədbirlərdən idi. Qurultay milli ideologiyamız olan azərbaycançılıq ideyası ətrafında soydaşlarımızın birlik və həmrəyliyini nümayiş etdirdi. Qurultayda xaricdəki həmvətənlərimizlə sistemli iş aparılmasını təşkil etmək, soydaşlarımız arasında milli birliyin möhkəmləndirilməsini təmin etmək məqsədilə xüsusi dövlət qurumunun yaradılması ideyası irəli sürüldü. Ümummilli lider Heydər Əliyevə məxsus olan bu ideya Azərbaycan diasporunun formalaşdırılması prosesini sürətləndirməyə xidmət edirdi.

Azərbaycan Respublikasının Prezidentinin 2002-ci il 5 iyul tarixli Fərmanı ilə Xaricdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi yaradıldı. Fərman Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından müstəsna əhəmiyyət kəsb edən mühüm tarixi sənəd olmuşdur. Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin yaradılması bu sahədə olan problemlərin aradan qaldırılması istiqamətində əhəmiyyətli addımlar atmağa və Azərbaycan diasporunun fəaliyyətini milli maraqlarımızın gerçəkləşdirilməsi istiqamətində mərkəzləşdirməyə imkan vermişdir.

27 dekabr 2002-ci il tarixli “Xaricdə yaşayan azərbaycanlılarla bağlı dövlət siyasəti haqqında” Azərbaycan Respublikasının Qanununa əsasən “Xaricdə yaşayan azərbaycanlılar” anlayışı Azərbaycan Respublikasının hüdudlarından kənarda yaşayan Azərbaycan Respublikasının vətəndaşlarına və onların övladlarına, əvvəllər Azərbaycan SSR-in və ya Azərbaycan Respublikasının vətəndaşları olmuş, lakin hazırda xarici dövlətlərdə məskunlaşan şəxslərə və onların övladlarına, bu kateqoriyaya aid olmayan, lakin etnik, dil, mədəniyyət və ya tarixi əlaqələr baxımından özünü Azərbaycana bağlı və ya azərbaycanlı hesab edənlərə aid edilir.

2004-cü ilin aprelin 17-də Berlin şəhərində Avropa Azərbaycanlıları Konqresinin təsis konfransı keçirilmişdir. Tədbirə dünyanın 28 ölkəsində fəaliyyət göstərən 50-dən artıq diaspor təşkilatından 264 nümayəndə qatılmışdır. Təsis konfransında Avropa Azərbaycanlıları Konqresinin nizamnaməsi qəbul edilmiş və qurumun rəhbər orqanları seçilmişdir.

2004-cü ilin mayın 28-də Türkiyə Respublikasının İsgəndərun şəhərində bu ölkədə fəaliyyət göstərən 18 Azərbaycan icma və birliklərini özündə birləşdirən Türkiyə Azərbaycan Dərnəkləri Federasiyası təsis edilmişdir.

2004-cü ilin oktyabr ayında Ümumrusiya Azərbaycan Konqresinin II Qurultayının keçirilməsi isə Azərbaycan diasporunun həyatında ən mühüm hadisələrdən biri olmuşdur. Qurultayda Azərbaycan və Rusiya Prezidentlərinin də iştirakı onun siyasi və tarixi əhəmiyyətini artıran əsas faktlardan biri kimi səciyyələndirilə bilər.

2005-ci ildə Ukrayna Azərbaycanlıları Konqresinin İdarə Heyətinin Dnepropetrovskda keçirilən toplantısında bu qurumun bütün regional təşkilatlarında gənclər birliklərinin yaradıması barədə qərar qəbul edilmişdir.

2005-ci ilin aprel ayında Kanadanın Toronto şəhərində Azərbaycan Təşkilatları Federasiyasının təsis konfransının keçirilməsi Azərbaycan icmalarının vahid təşkilatda birləşməsi prosesinin artıq mütəşəkkil xarakter aldığını və bütün dünyanı əhatə etməkdə olduğunu göstərdi.

2006-cı il martın 16-da Azərbaycan Respublikası Prezidentinin sərəncamı ilə Bakı şəhərində Dünya Azərbaycanlılarının II Qurultayı keçirilmişdir. Dünya Azərbaycanlılarının II Qurultayı tarixi məzmununa və ictimai əhəmiyyətinə görə, ilk qurultaydan bir çox cəhətləri ilə seçilirdi. Bu fərqlərdən başlıcası Azərbaycanın müstəqil dövlət olaraq keçdiyi inkişaf yolu ilə bağlı idi. Qurultayda 49 xarici ölkədən 593 nümayəndə və 388 nəfər qonaq iştirak etmişdir. Dünya Azərbaycanlılarının II Qurultayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin nitq söyləmişdir.



Dünya Azərbaycanlılarının II Qurultayı
2006

2007-ci il noyabrın 17-19-da Bakıda Türk Dövlət və Cəmiyyətlərinin XI Dostluq, Qardaşlıq və Əməkdaşlıq Qurultayı keçirilmişdir. 30 ölkədən 550 nəfər nümayəndə və qonağın dəvət olunduğu qurultayın işində Azərbaycan Respublikasının, Türkiyə Cümhuriyyətinin, Şimali Kipr Respublikasının prezidentləri, habelə türkdilli dövlətlərin yüksək dövlət və hökumət nümayəndələri iştirak etmişlər.




Kanadada Azərbaycan və türk icmalarının birgə mitinqi
2006

Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi Azərbaycan Respublikası Prezidentinin 2008-ci il 19 noyabr tarixli Sərəncamı ilə Azərbaycan

Respublikasının Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin əsasında yaradılmışdır. Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi mərkəzi icra hakimiyyəti orqanı olaraq diasporla iş sahəsində dövlət siyasətinin həyata keçirilməsini, xaricdə yaşayan azərbaycanlılar, eləcə də onların təsis etdiyi diaspor təşkilatları, habelə Azərbaycana dost münasibət bəsləyən digər xalqların diasporları ilə əlaqələrin genişləndirilməsini və inkişaf etdirilməsini, dövlət orqanlarının və qeyri-hökumət təşkilatlarının bu sahə ilə bağlı fəaliyyətinin əlaqələndirilməsini təmin edir.

2008-ci il dekabrın 18-19-da Bakı şəhərində keçirilən Dünya Azərbaycanlılarını Əlaqələndirmə Şurasının toplantısında “Dünya Azərbaycanlılarının Həmrəylik Xartiyası” qəbul olunmuşdur.

2011-ci ilə qədər dünyada 416 Azərbaycan diaspor təşkilatı fəaliyyət göstərmişdir ki, onlardan da 80-ni Dünya azərbaycanlılarının II qurultayından sonra yaradılmışdı.

2011-ci il iyulun 5-6-da Dünya Azərbaycanlılarının III qurultayının keçirilməsi diaspor quruculuğu işinə yeni təkan vermişdir. Qurultayda 42 ölkədən seçilmiş 600 nümayəndədən 579 nəfəri, habelə dünyanın 30 ölkəsindən 211 nəfər qonaq qismində iştirak etmişdir. Qurultaya ümumilikdə 13 ölkənin parlamentindən 37 deputat qatılmışdır.



Dünya Azərbaycanlılarının III Qurultayı
2011

Dünyadakı azərbaycanlı gəncləri azərbaycançılıq ideyası ətrafında birləşdirmək, diaspor fəaliyyətinə cəlb etmək məqsədilə 2012-ci il martın 12-də Bakıda Dünya Azərbaycanlı Gənclər Birliyi təsis edilmişdir.

2013-cü ilin yanvarında Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Diaspor Məsələlərinə Cavabdeh Dövlət Qurumlarının Rəhbərlərinin I Toplantısı, həmin ilin iyun ayında isə şuraya üzv ölkələrin diaspor təşkilatları rəhbərlərinin birinci forumu keçirilmişdir. Bir neçə ölkədə türkdilli ölkələrin koordinasiya mərkəzləri açılmışdır.

2016-cı il iyun ayının 3-4-də Bakıda Dünya Azərbaycanlılarının IV Qurultayı keçirilmişdir. Qurultayda dünyanın 49 ölkəsindən 500-dən çox Azərbaycan diaspor təşkilatlarının nümayəndələri, habelə Azərbaycana dost münasibəti ilə tanınan xarici ölkələrin nüfuzlu siyasətçiləri, ictimai xadimləri və elm adamlarından ibarət 50 nəfərə yaxın qonaq iştirak etmişdir. Qurultayda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləmişdir.

Dünya Azərbaycanlılarının III Qurultayından ötən beş il ərzində 47 yeni diaspor təşkilatı yaradılmışdır. 2016-cı ildə xaricdə 462 diaspor təşkilatı fəaliyyət göstərmişdir.

Dünya Azərbaycanlılarının IV Qurultayı çərçivəsində "Lobbi quruculuğu: dəyişən geosiyasi reallıqlar yeni qlobal iqtisadi tendensiyalar kontekstində" mövzusunda panel iclası keçirilmişdir.

Qurultayın diqqətçəkən məqamlarından biri də nümayəndələrin Dağlıq Qarabağ münaqişəsi ilə bağlı dünya ictimaiyyətinə, beynəlxalq təşkilatlara, xarici ölkələrin hökumət rəhbərlərinə və parlamentlərinə müraciəti olmuşdur.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 2016-cı il 27 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "Dünya Azərbaycanlılarının IV Qurultayından irəli gələn vəzifələrə dair Tədbirlər Planı"na uyğun olaraq diaspor və icmalar arasında təşkilatlanma işinin gücləndirilməsi, onların fəaliyyətinin koordinasiyası, yerli cəmiyyətə inteqrasiya, xarici ölkələrdə yaşayan azərbaycanlı iş adamlarının, gənclərin diaspor quruculuğu işinə cəlb olunması, erməni diasporunun ölkəmizlə bağlı anti-təbliğat kampaniyalarının qarşısının effektiv şəkildə alınması, soydaşlarımızın hüquq və azadlıqlarının təmin olunması istiqamətində mühüm işlər görülmüşdür.

23 fevral 2018-ci il tarixində İstanbulda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının nəzdində fəaliyyət göstərən diasporla iş üzrə Təmas qrupunun IV iclası keçirilmişdir.

2018-ci il fevralın 28-də İstanbul şəhərində Avropa Azərbaycanlıları Konqresinin toplantısı keçirilmişdir. Toplantıda Türkiyə də daxil olmaqla Cənub-Şərqi Avropa ölkələrində azərbaycanlıların fəaliyyəti ilə bağlı yeni planlar müzakirə olunmuşdur.



Dünya Azərbaycanlılarının IV Qurultayı
2016

2018-ci il mayın 6-da Varşavada Polşanın Sosial Siyasət Nazirliyində Avropa Azərbaycanlıları Konqresi və Polşada Azərbaycanlı Gəncləri Şurasının təşkilatçılığı ilə qitənin müxtəlif ölkələrindən gələn azərbaycanlılarla görüş keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidentinin 6 iyul 2018-ci il tarixli fərmanına əsasən Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi tabeliyində Azərbaycan Diasporuna Dəstək Fondunun yaradılmışdır. Azərbaycan Diasporuna Dəstək Fondu Azərbaycan Respublikasında həyata keçirilən islahatların və əldə olunmuş nailiyyətlərin dünyaya bəyan edilməsinə, ölkənin mənafelərinin müdafiəsinə, dünya azərbaycanlılarının milli-mənəvi dəyərlərinin qorumasına, daha da inkişaf etdirməsinə və tanıtmasına, xaricdə yaşayan azərbaycanlıların milli və vətəndaş hüquqlarının müdafiəsinə yönəlmiş tədbirlərin həyata keçirilməsinə, lobbiçilik fəaliyyətinin güclənməsinə, soydaşlarımızın sosial-iqtisadi, ictimai-siyasi, mədəni-mənəvi problemlərinin həllinə, bu sahədə sosial layihələrin reallaşdırılmasına, habelə Azərbaycan diaspor təşkilatlarının fəaliyyətinə və mütəşəkkilliyinin möhkəmlənməsinə dövlət dəstəyini təmin etmək məqsədilə yaradılmışdır.

Komitənin internet televiziyası Diaspor TV yaradılaraq aktiv fəaliyyəti təmin edilmişdir. Diaspor TV-də “Dünyada yaşayan azərbaycanlıları tanıyaq-tanıdaq” layihəsi həyata keçirilir. Diasporla İş üzrə Dövlət Komitəsinin “Strateji Yol Xəritəsi” işlənib hazırlanmışdır və icrası istiqamətində addımlar atılır.

Tarixi Vətənlə əlaqələr məsələsi dünya azərbaycanlılarının təşkilatlandırılmasının ən mühüm prinsiplərindəndir. Bu əlaqələrin möhkəmləndirilməsi yalnız mədəni, siyasi, psixoloji zəmində deyil, həm də iqtisadi aspektdə də özünü göstərməkdədir. Dünya azərbaycanlıları müstəqil Azərbaycan Respublikasının beynəlxalq aləmlə münasibətlərinin inkişafında, ölkəmiz haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında iştirak etmək imkanına malik ən fəal qüvvəyə çevrilməkdədir. Azərbaycan diasporu hazırda xarici siyasətdə, dövlətlərarası münasibətlərdə və beynəlxalq əlaqələrdə özünəməxsus elementə çevrilməklə öz funksiyasını daha da artırmaqdadır.

Xarici ölkələrdə azərbaycanlıların kompakt yaşadıqları şəhərlərdə Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi ilə Azərbaycan evlərinin yaradılması prosesi sürətlə davam etdirilir. xaricdə açılan Azərbaycan evlərinin soydaşlarımızın birgə fəaliyyəti, şəbəkələşməsi, azərbaycançılıq ideologiyası ətrafında birləşməsi baxımından xüsusi əhəmiyyəti vardır.



Azərbaycan diasporu fəalları bir arada. Moskva 2019

Hazırda Azərbaycan diaspor quruculuğunun qarşısında dayanan əsas təşkilati problemlər aşağıdakılardır: 1) azərbaycanlıların məskunlaşdıqları bütün xarici ölkələrdə, şəhərlərdə onların qurumlarının yaradılması; 2) mövcud qurumların ölkə, yaxud region (bir neçə ölkə) miqyasında konqres, yaxud federasiyalarda birləşdirilməsi; 3) müxtəlif ölkələrdə məskunlaşmış Şimali və Cənubi Azərbaycan mühacirət təşkilatlarının mədəni, sosial-siyasi maraqlarının birləşdirilməsi, vahid fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi; 4) müxtəlif ölkələrdəki türk diasporu, eləcə də azərbaycanlılarla etnik-mədəni, siyasi maraqları uyğun olan digər diasporlarla əməkdaşlıq münasibətlərinin qurulması; 5) Azərbaycan Respublikasının müvafiq dövlət qurumları ilə Azərbaycanın diaspor təşkilatları arasında əlaqələrin çevikliyini təmin edən tədbirlərin ardıcıl davam etdirilməsi.

50 milyonluq Azərbaycan xalqının hazırda beşdən dördü öz tarixi vətənində, beşdən biri isə vətəndən kənarda yaşayır ki, bu, diaspor quruculuğu hərəkatı üçün geniş imkanlar verir.

Dünyanın ayrı-ayrı ölkələrindəki soydaşlarımızla aparılan sistemli iş, azərbaycanlıların milli birliyinin möhkəmləndirilməsi yönündə dövlətin yürütdüyü siyasət Azərbaycan diasporunun fəaliyyətinin mütəşəkkil qaydada əlaqələndirilməsi, dünya azərbaycanlılarının siyasi və ideoloji birliyinin təminatı baxımından mühüm əhəmiyyət kəsb edir.

* * *

## Xarici ölkələrdə yaşayan azərbaycanlıların sayı

| № | Ölkənin adı | Qeyri-rəsmi məlumat | Rəsmi məlumat |
|---|---|---|---|
| 1. | ABŞ | 400 000 - 450 000 nəfər | |
| 2. | Almaniya | 200 000 nəfər | 13 444 nəfər |
| 3. | Avstraliya | 8 000 nəfər | 7 500 nəfər |
| 4. | Avstriya | 3 000 nəfər | |
| 5. | Belçika | 3 000 nəfər | |
| 6. | Belarus | 7 000 nəfər | 5 567 nəfər |
| 7. | Böyük Britaniya | 17 000 nəfər | |
| 8. | Çexiya | 2 000 nəfər | |
| 9. | Çin | 30 000 nəfər | |
| 10. | Danimarka | 6 000 nəfər | |
| 11. | Finlandiya | 3 000 nəfər | |
| 12. | Fransa | 70 000 nəfər | |
| 13. | Estoniya | 1 800 nəfər | |
| 14. | Gürcüstan | 500 000 nəfər | 284.800 nəfər<br>***Qeyd:*** Borçalı azərbaycanlıların etnik-tarixi torpağı olduğu üçün orada yaşayanlar diaspor sayılmır. |
| 15. | İraq | 800 000 nəfər | |
| 16. | İran | 30 000 000 nəfər | 16 000 000 nəfər<br>***Qeyd:*** Cənubi Azərbaycan azərbaycanlıların etnik-tarixi torpağı olduğu üçün orada yaşayanlar diaspor sayılmır. |
| 17. | İsveç | 30 000 nəfər | |
| 18. | İsveçrə | 4 000 nəfər | |
| 19. | İspaniya | 5 000 nəfər | |
| 20. | İsrail | 75 000 nəfər | |
| 21. | İtaliya | 2 000 nəfər | |
| 22. | Qazaxıstan | 90 000 nəfər | 85 292 nəfər |
| 23. | Qırğızıstan | 20 000 nəfər | 18 900 nəfər |

| | | | |
|---|---|---|---|
| 24. | Kanada | 170 000 nəfər | |
| 25. | Latviya | 4 000 nəfər | 2 237 nəfər |
| 26. | Litva | 1 500 nəfər | 648 nəfər |
| 27. | Moldova | 6 000 nəfər | |
| 28. | Niderland | 20 000 nəfər | |
| 29. | Norveç | 3 000 nəfər | |
| 30. | Özbəkistan | 68 000 nəfər | 35848 nəfər |
| 31. | Polşa | 2 000 nəfər | |
| 32. | Rumıniya | 2 000 nəfər | |
| 33. | Rusiya | 2 000 000 nəfər | 603 070 nəfər<br>***Qeyd:*** Dərbənd azərbaycanlıların etnik-tarixi torpağı olduğu üçün orada yaşayanlar diaspor sayılmır. |
| 34. | Suriya | 4 5000 nəfər | |
| 35. | Şimali Kipr | 1 000 nəfər | |
| 36. | Türkiyə | 3 000 000 nəfər | |
| 37. | Türkmənistan | 48 000 nəfər | |
| 38. | Tacikistan | 5 800 nəfər | |
| 39. | Ukrayna | 280 000 nəfər | 45176 nəfər |
| 40. | Yaponiya | 10 000 nəfər | |
| 41. | Yeni Zelandiya | 2 000 nəfər | |

**Qeyd:** Xarici ölkələrdə yaşayan azərbaycanlıların sayı haqqında məlumat Yəhya Babanlının “Azərbaycan Respublikasının xarici siyasəti və diaspor fəaliyyəti (1991-2011)” kitabından götürülmüşdür. (Bakı: Elm və təhsil, 2016. – s. 303-304)